## Təranə Arifqızı

# Bahar Fəsli

Aşıq, sazı götür, qonaq ol bağa,
Badam çiçəkləyir, nar çiçəkləyir.
Alma, ərik, gilas, alça ayılıb,
Meyvə ağacları bar çiçəkləyir.

Çöllərdə əkinin, şumun çağıdı,
Zirvəsi qar olan Haça dağıdır,
Batabatın gözü Zorbulağıdı,
Suyu diş dondurur, xar çiçəkləyir.

İydə çiçəyinin ətri yoldadır,
Yonca, yemlik, quşəppəyi bal dadir,
Təbiət də hərdən bizi aldadir,
Təbdən- təbə düşür, qar çiçəkləyir.

Düzülüb yol boyu yaşıl ağaclar,
Uçur qaranquşlar, oxur turaclar,
Durnalar, leyləklər, sonalar, qazlar
Dilində nəğməsi, tar çiçəkləyir.

Dünyanın bəzəyi, Nuhun yaşıdı,
Naxçıvan yurdumun üzük qaşıdı,
Nemət dolu qayasıdı, daşıdı,
Təranə, bərəkət, bar çiçəkləyir.